42 (1348) 24-30 oktyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN REGIONAL SÜLH GÜNDƏLİYİNİ DƏSTƏKLƏYİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul edib.

Maykl Karpenter qəbula görə təşəkkürünü bildirib və ABŞ Prezidenti Cozef Baydenin məktubunu dövlətimizin başçısına təqdim edib. O, ABŞ-ın Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulayaraq, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu deyib.

Sülh müqaviləsinin imzalanması ilə regional əməkdaşlıq üçün geniş imkanların yaranacağını vurğulayan qonaq bildirib ki, ABŞ-ın bu prosesin irəli aparılmasında qəti dəstəyi var.

Sülh müqaviləsinin və onun əsasını təşkil edən beş prinsipin təşəbbüskarının məhz Azərbaycan olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir. Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan sülh müqaviləsinin mətni üzrə son təkliflərini 70 gündən sonra göndərməsi bu ölkənin prosesin irəli aparılması niyyəti ilə bağlı müəyyən suallar doğurur. Ermənistanın konstitusional əsasda Azərbaycana qarşı ərazi iddialarının sülh müqaviləsinin imzalanması yolunda başlıca maneə olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin prosesin irəli aparılması üçün bundan sonra da qəti addımlarını davam etdirəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid olan məsələlər barədə də fikir mübadiləsi aparılıb.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XVI BRICS SAMMİTİNİN "OUTREACH" "BRICS+" FORMATINDA İŞTİRAK EDƏCƏK




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfər edib.

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü baş tutub.

## Milli Məclisin plenar iclasında 19 məsələ müzakirə olunub

Oktyabrın 22-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

Əvvəlcə, iclasda cari məsələlərin müzakirəsi keçirilib. Çıxışlarda bildirilib ki, Azərbaycanın Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində qazandığı Qələbə və suverenliyimizin tam bərpasından sonra düşmən xalqımıza qarşı mina terrorunu və informasiya müharibəsini bu gün də davam etdirir. Qərbi Azərbaycandan vəhşicəsinə qovulmuş azərbaycanlıların öz doğma evlərinə qayıtmasına razılıq vermirlər. Vurğulanıb ki, belə həlledici məqamda Prezident İlham Əliyevin 2022-ci ilin dekabrında Qərbi Azərbaycan İcmasına gəlişi və orada etdiyi tarixi çıxış soydaşlarımızın öz doğma yurdlarına qayıdışı ilə bağlı mübarizəsində yeni səhifə açıb. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində Qərbi Azərbaycan məsələsinin beynəlxalq aləmdə siyasi və insan hüquqları kontekstində ciddi şəkildə qəbul olunması təmin edilib.

Sonra gündəlikdəki 19 məsələnin müzakirəsinə başlanılıb. İlk 5 məsələ üçüncü oxunuşda qanun layihələri olub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Turizm haqqında", Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini təqdim ediblər. Kamal Cəfərov, həmçinin İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib.

Müzakirələrdən sonra hər beş qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Növbəti iki məsələ - "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri



uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyıb, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilib.

Sonra birinci oxunuşda olan 12 məsələ müzakirəyə çıxarılıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Minatəmizləmə fəaliyyəti haqqında", Kamal Cəfərov "Yol hərəkəti haqqında", Azər Əmiraslanov "Qrant haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında", İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov "Arbitraj haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri barədə məlumat veriblər. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini isə Arzu Nağıyev təqdim edib.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva "Uşaq hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyətini diqqətə çatdırıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib.

Gündəliyin növbəti məsələsi olan "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verib.

Sonra gündəliyin 17-ci məsələsi olan "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Arzu Nağıyev təqdim edib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə danışıb.

Gündəliyin sonuncu – 19-cu məsələsi olan "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib.

Müzakirələrdən sonra qanun layihələrinin hər biri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Aparatı tərəfindən hazırlanan "Gündəlik" adlı mobil tətbiq barədə məlumat verilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

## COP29-A HAZIRLIQLA BAĞLI İCRA EDİLƏN TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİ YEKUN MƏRHƏLƏSİNDƏDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə edib.

Qeyd edilib ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verilib.



Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olub.

Azərbaycan Prezidentinə COP29 Yaşıl Zonada görülən işlər barədə də geniş məruzə edilib.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxıb. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Bildirildi ki, konfransın işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

## AİB: Emissiyaları azaltmaq üçün vacib şərt dəmiryolundan geniş istifadə etmək və rəqəmsallaşmadır



Nəqliyyat sektorunun karbonsuzlaşdırılmasında dəmiryol sektoru mühüm rol oynayır. Azərbaycanda son 20-25 ildə həm sərnişin, həm də yükdaşımalara tələbat artmaqdadır.

AZƏRTAC xəbər verir ki, bunu Asiya İnkişaf Bankının (AİB) Nəqliyyat üzrə direktoru Ceyms Leder "Gələcək üçün dayanıqlı nəqliyyat" adlı tədbirdə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, dəmiryolunun emissiyalarını azaltmaq üçün Asiya İnkişaf Bankı müxtəlif həllərdən istifadə edəcək: **"Burada vacib şərt dəmiryolundan geniş istifadə etmək və rəqəmsallaşdırmaqdır".**

# İndiyədək 157 sahibkarlıq subyektinə rezident statusu verilib

2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,88 milyard manat olan 157 sahibkarlıq subyektinə rezident statusu verilib.
Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb və




10 min 500-dən çox daimi iş yeri yaradılıb.
Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiyanın yatırılması və 9400-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

# “Cənub Qaz Dəhlizi” 2024-cü ilin ilk yarısında $902 mln. xalis mənfəət əldə edib

Azərbaycanın ən iri qaz boru kəmərinin operatoru “Cənub Qaz Dəhlizi” QSC (SGC) 2024-cü ilin ilk yarısını 901.55 milyon ABŞ dolları dəyərində xalis mənfəət əldə edib. Bu, keçən ilin eyni dövründə 727.04 mln. dollar idi.
Bu barədə SGC-nin yarımillik audit hesabatında bildirilir.
Hesabata əsasən, dövlət şirkətinin gəlirləri illik müqayisədə 17 faiz artımla 1 milyard 631.06 milyon dollara yüksəlib.
Şirkətin satışlarının maya dəyəri 365.62 mln. dollar olub. Şirkətin əməliyyat mənfəəti isə 1 mlrd. 7.79 mln. dollar olub.
Hesabat müddəti ərzində “Cənub Qaz Dəhlizi”nin aktivlərinin həcmi 3% azalaraq 14 mlrd. 749 mln. dollar olub.
Azərbaycan qazının xaricə nəqlini həyata keçirən “Cənub Qaz Dəhlizi” Azərbaycan Prezidentinin imzaladığı 25 fevral 2014-cü il tarixli sərəncamla Layihələr üzrə Dövlətə məxsus payların konsolidasiya edilməsi, idarə olunması və maliyyələşdirilməsi məqsədilə yaradılmışdır. SGC Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (51%) və SOCAR-ın (49%) təsisçiliyi ilə 31 mart 2014-cü il tarixində yaradılıb.

# Təbii inhisar subyektləri ilə bağlı müraciətlərin sayı 50 faiz artıb

2024-cü ilin 9 ayı ərzində təbii inhisar subyektlərinin fəaliyyətinə nəzarət tədbirləri çərçivəsində baxılmış müraciətlərin sayında ötən ilin müvafiq dövrünə nəzərən 50 faizədək artım qeydə alınıb.
Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib ki, bəhs edilən




dövrdə baxılmış istehlakçı müraciətlərinin 21 faizi təmin edilib.
Dövlət Xidməti tərəfindən istehlakçıların təbii inhisar subyektləri ilə münasibətdə Rəqabət Məcəlləsində təsbit edilmiş tələblərdən irəli gələn hüquqlarının müdafiəsi istiqamətində nəzarət tədbirləri davam etdirilir.

## “Avropa və Asiyanın kəsişməsində yerləşməyimiz Orta Dəhliz kimi marşrutlarda bizə önəmli yer tutmağa imkan verir”

***“Azərbaycan hökuməti biznes mühitinin yaxşılaşdırılması, o cümlədən dəmir yolu sektoruna birbaşa təsir edən bir sıra islahatlar həyata keçirib. Eyni zamanda “Azərbaycan Dəmir Yolları” QSC (ADY) infrastruktur və heyətinin təhlükəsizliyi ilə bağlı milli standartlaşdırma proqramı üzərində işləyir”.***
Bunu ADY-nin Tədqiqat və inkişaf mərkəzinin rəhbəri vəzifəsini icra edən Orxan Əhmədzadə “Azərbaycanda Dəmiryol Texnologiyalarında İnnovasiyalar: Alman şirkətləri üçün tərəfdaşlıqlar və imkanlar” forumunda çıxışı zamanı bildirib.
Onun sözlərinə görə, ADY mövcud xətlərin yenilənməsi ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə yeni tikinti layihələri icra edir.




“Bu, təkcə həmin regionların bərpası deyil, həm də bu ərazilərin milli və beynəlxalq iqtisadiyyata inteqrasiyası ilə onların iqtisadi potensialının ortaya çıxarılmasıdır. Yeni dəmir yolları həm yerli, həm də beynəlxalq şirkətlər üçün imkanlar yaratmaqla biznesi, ticarəti və icma inkişafını dəstəkləmək üçün nəzərdə tutulub. Bura gömrük prosedurlarının sadələşdirilməsi, inzibati proseslərin rəqəmsallaşdırılması, onların beynəlxalq təhlükəsizlik və əməliyyat standartlarına uyğunlaşdırılması daxildir. Avropa və Asiyanın kəsişməsində yerləşməyimiz bizə Azərbaycanın sürətlə ticarət, logistika mərkəzinə çevrildiyi bir vaxtda, Çin və Avropanı birləşdirən Orta Dəhliz kimi marşrutlarda önəmli yer tutmağa imkan verir. Hökumət, xüsusilə infrastruktur, logistika sahəsində yerli və xarici investisiyaları cəlb etmək üçün sabit, şəffaf və biznes üçün əlverişli mühit yaratmaq üzərində fəal işləyir. Bu səylər Azərbaycanı qlobal ticarətdə vacib oyunçuya çevirməklə yanaşı, ölkənin iqtisadiyyatını da şaxələndirməyə kömək edir”, - deyə Orxan Əhmədzadə vurğulayıb.

# “AzerGold” QSC-nin hasilat və satış həcmləri artıb




“AzerGold” QSC 2024-cü ilin yanvar-sentyabr aylarında hasilat və satış əməliyyatlarını uğurla davam etdirib.
Sözügedən dövr ərzində Cəmiyyət tərəfindən 48.7 min unsiya həcmində qızıl hasilatı həyata keçirilib. Bununla ötən ilin ilk 9 ayı ilə müqayisədə qızıl hasilatında 27% artım qeydə alınıb. Cari ilin ötən dövrü ərzində müəyyənləşdirilmiş qızıl hasilatı planı 3% artıq icra edilib. Sözügedən dövr ərzində gümüş hasilatı isə 69.2 min unsiya təşkil edib.
Həmçinin Səhmdar Cəmiyyət tərəfindən cari ilin ilk 9 ayı ərzində 40.2 min unsiya qızıl, 54.7 min unsiya gümüşün yerli və beynəlxalq bazarlarda satışı həyata keçirilib. Nəticədə ölkə iqtisadiyyatına ötən ilin eyni dövrü ilə müqayisədə 21% daha çox olmaqla 166.9 milyon manat vəsait cəlb edilib.
Ümumilikdə isə QSC tərəfindən 456.5 min unsiya qızıl, 907.4 min unsiya gümüşün yerli və xarici bazarlarda satışı nəticəsində əldə olunmuş ümumi gəlir 1 milyard 355 milyon 471 min 676 manat təşkil edir. Vəsaitin 1 milyard 290 milyon 315 min 319 manatını ixrac gəlirləri, 65 milyon 156 min 357 manatını isə daxili bazar satışlarından əldə edilmiş gəlirlər formalaşdırır.
Qeyd edək ki, “AzerGold” QSC tərəfindən cari il üzrə 70 min unsiya qızıl hasilatı və satışı planlaşdırılıb. Bu, 2023-cü ilin göstəriciləri ilə müqayisədə hasilatda 10%, satışda isə 3% daha artıq hədəfdir.

# SOCAR Qarabağ və Şərqi Zəngəzurda ənənəvi yanacağı bioqaz və biodizellə əvəz edəcək

SOCAR Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında karbon neytral zona kimi inkişaf etdirilməsi üçün həyata keçirəcəyi tədbirləri açıqlayıb.
SOCAR-ın 2023-cü il üzrə Davamlı inkişaf haqqında hesabatında bildirilir ki, bu tədbirlərə emissiyaların azaldılması – enerji səmərəliliyinin artırılması, “CCU/CCUS” və s.



kimi imkanların tətbiqi, elektrikli nəqliyyat vasitələri üçün regional infrastrukturun qurulması, qazın bərpa olunan enerji, H2 və digər yaşıl enerji həlləri ilə əvəz edilməsi daxildir. Həmçinin şirkət yaşıl yanacaq istehsalını artırmaq üçün ənənəvi karbohidrogen yanacağını bioqaz və biodizellə əvəz edilməsi istiqamətində də tədbirlər həyata keçirəcək.

# COP29-da qeydiyyatdan keçənlərin ilkin sayı açıqlanıb

Hazırkı tarixə olan məlumata əsasən, bu ilin 11-22 noyabrında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak üçün müvafiq qeydiyyat prosesindən keçən iştirakçıların sayı 32 min nəfəri keçib. Bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib.
Qeyd edək ki, beynəlxalq iqlim konfransında iştirakla bağlı qeydiyyat prosesinə bu ilin 24 iyun tarixindən etibarən başlanılıb. Dünyanın müxtəlif ölkələrindən konfransda iştiraka dair göstərilən maraq qeydiyyatdan keçənlərin sayının da günbəgün artımı ilə müşayiət edilir. COP tədbirlərinə xas olan əksər deleqasiyaların tədbirə daha yaxın tarixlərdə qeydiyyat üçün müraciət etmə tendensiyası nəzərə alınaraq, davam edən qeydiyyat prosesi ərzində bu rəqəmlərin yaxın həftələrdə daha da artması gözlənilir.
Bildirilib ki, COP29 konfransı beynəlxalq iqlim siyasətinin formalaşmasında əsas platforma olaraq, dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizə məsələlərinin müzakirə mərkəzi olacaq. Dünyanın bir sıra ölkələrindən bu müzakirələrdə iştirak etmək üçün on minlərlə nümayəndənin Bakıda qarşılanması üçün yekun hazırlıq işləri davam etdirilir.

# Əsgəranda sement zavodu fəaliyyətə başlayıb

Xocalı rayonunun Əsgəran qəsəbəsində “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin həmtəsisçisi olduğu “Shahbulag Mining” MMC daha bir layihənin icrasına başlayıb.
Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.
Nazir bildirib ki, illik istehsal gücü 60 min ton olan “AzCement” sement zavodunda 70 nəfərin işlə təmin edilməsi nəzərdə tutulub: ***“Zavod işğaldan azad edilmiş ərazilərin infrastrukturunun və sənaye potensialının gücləndirilməsinə, regionun iqtisadi inkişafına töhfə verəcək”.***




# Sənaye zonalarında 14,5 milyard manatlıq məhsul satılıb




2015-ci ildən 2024-cü il oktyabrın 1-dək sənaye zonalarında 14,5 milyard manatlıq məhsul satışı həyata keçirilib. Bunun 4,7 milyard manatlıq hissəsi ixrac edilib. İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, bu ilin 9 ayı ərzində sənaye zonalarında 2,4 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 801,1 milyonluq hissəsi ixracın payına düşür.

# Azərbaycan Çin ilə bərpa olunan enerji sahəsində əməkdaşlıq əlaqələrinin inkişafını müzakirə edib

Çində səfərdə olan energetika naziri Pərviz Şahbazov “TBEA Co.,Ltd” və “PowerChina International Group” şirkətləri ilə bərpa olunan enerji sahəsində əməkdaşlıq əlaqələrinin inkişafını müzakirə edib.
Energetika Nazirliyindən bildirilib ki, “TBEA Co.,Ltd” İdarə Heyətinin sədri Zhang Xin ilə görüşdə şirkətin istehsal, mühəndislik xidmətləri, satınalma, tikinti, enerjinin ötürülməsi və paylanması, elektrik stansiyaları, bərpa olunan enerji mənbələri və digər infrastruktur layihlələrinin maliyyələşdirilməsi üzrə fəaliyyəti barədə məlumat verilib. TBEA şirkəti ilə Azərbaycanla bərpa olunan enerji avadanlıqlarının istehsalı, texnologiyaların təchizatı sahələrində, həmçinin regional yaşıl enerji infrastrukturu layihələrində əməkdaşlıq imkanları müzakirə edilib. Nazirliklə TBEA arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması nəzərdən keçirilib. Söhbət zamanı COP29 çərçivəsində əməkdaşlığa da toxunulub.




“PowerChina International Group” şirkətinin vitse-prezidenti Yang Yisheng ilə görüşdə isə iki ölkə liderlərinin Azərbaycan-Çin münasibətlərini strateji tərəfdaşlığa yüksəldən siyasətinin yaşıl enerji sahəsində geniş əməkdaşlığı təşviq etdiyi bildirilib. Bu kontekstdə “PowerChina” şirkəti ilə Azərbaycanın bərpa olunan enerjinin inkişafı ilə bağlı növbəti mərhələsi və yaşıl enerji dəhlizlərini əhatə edən beynəlxalq miqyaslı fəaliyyəti çərçivəsində yeni əməkdaşlıq perspektivləri dəyərləndirilib. Həmçinin Xızı və Abşeronda 240 meqavatlıq külək enerjisi layihəsinin həyata keçirilməsində və 100 meqavat gücündə Qobustan Günəş Elektrik Stansiyası üzrə keçirilən hərrac prosesində şirkətin iştirakından məmnunluq ifadə edilib. “PowerChina” şirkəti Xəzər dənizində külək enerjisinin istehsalı, bu enerjinin ötürülməsi və bərpa olunan enerjinin digər istiqamətləri üzrə əməkdaşlığa dəvət edilib.

(əvvəli ötən sayımızda)

# Türk dövlətlərini birləşdirən güclü siyasi-iqtisadi platforma



**Azərbaycanın qələbəsi Türk dünyasının Zəfəridir**

Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf etdi. Bu dövrdə Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazandı, ərazi bütövlüyümüz təmin olundu.

Müharibə dövründə Türk Şurası ilk gündən Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi və əlbəttə ki, bu, həm də hər bir türk dövlətinin savaşla bağlı mövqeyinin ifadəsi idi. Vətən müharibəsinin ilk günlərində təşkilatın yaydığı bəyanatda münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi qeyd edildi.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi Türk Şurasının 2021-ci il martın 31-də videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə də xüsusi qeyd olundu. Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayevin, Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Türk Şurasının keçmiş Baş katibi Bağdad Amreyevin təbrikləri göstərdi ki, Azərbaycanın Qələbəsini bütün türk dünyası öz zəfəri kimi qəbul edir.

Azərbaycanın Vətən müharibəsində qələbəsi bütün türk dünyasının Zəfərinə çevrildi. Bu hadisə türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu baxımdan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşü Azərbaycanın qələbəsinin türk dövlətləri tərəfindən qeyd olunması baxımından mühüm siyasi hadisə oldu. Bu, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra keçirilən ilk Zirvə Görüşü olduğundan, 44 günlük müharibədə qazanılan Zəfər bütün türk dünyasının uğuru kimi tədbirin yüksək ovqatını müəyyən edən amil olaraq özünü göstərdi. **“Rəqəmsal dövrdə yaşıl texnologiyalar və ağıllı şəhərlər”** mövzusunda görüş həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adı altında keçirilən sonuncu Zirvə Toplantısı oldu.

İstanbulda mühüm qərarlar qəbul olundu. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının **“Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, “Türk dünyasına baxış - 2040”** sənədinin qəbulu ilə bağlı qərarlar bütövlükdə təşkilatın fəaliyyətini yeni mərhələyə yüksəldən addımlar oldu. Zirvə Görüşünün əsas hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi oldu.

Prezident İlham Əliyev bu mükafata Azərbaycanın Vətən müharibəsindəki tarixi və möhtəşəm qələbəsində və türk birliyinin daha da möhkəmləndirilməsindəki səylərinə görə təltif olundu. Vətən savaşındakı qələbə ilə Azərbaycan 30 ilə yaxın işğal altında qalan torpaqlarını azad etdi. Ermənistanın işğal siyasətinə son qoymaqla Azərbaycan BMT-nin kağız üzərində qalan qətnamələrinin icrasını təmin etdi. Bu qələbə regionda yeni siyasi-iqtisadi reallıqlar və əməkdaşlıq imkanları yaradıb.

Türk Dünyasının Ali Ordenini təqdim edərkən **«Hörmətli Prezident, əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev», -** deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, «qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır». Türkiyə prezidenti xüsusi vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmiş, Qarabağın azadlığının rəmzi olan “Xarıbülbül” türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması dövlətimizin başçısının şəxsiyyətinə göstərilən böyük ehtiramın nümunəsidir. Bu mükafat Azərbaycan prezidentinin dünyadakı yüksək nüfuzunun təcəssümüdür. Türk Dünyasının Ali Ordeninə görə dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev bunun bütün Azərbaycan xalqına verilmiş mükafat olduğunu bildirmişdir: **«Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır».**

Ümumiyyətlə, TDT hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. Təşkilatın katibliyi 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermiş, keçmiş baş katib Bağdad Amreyev 2020-ci ilin 20 oktyabr tarixində Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir.

Azərbaycanın zəfərinin türk dünyasının qələbəsi olması 2022-ci ilin noyabr ayında keçirilən IX Səmərqənd Zirvə görüşündə də bəyan olundu. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın yanında olduqlarını bir daha bəyan etdi: **“Cənubi Qafqazda sülh prosesi Can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ Zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq”.**

Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi də Azərbaycanın zəfərinin bütün türk dünyasının böyük uğuru kimi qarşılanmasının təcəssümü idi. Eyni zamanda, Şuşanın 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi şəhərin türk dünyası üçün böyük mədəni əhəmiyyətə malik olduğunun göstəricisi oldu.

Memarlıq və şəhərsalma sənətinin 272 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verdi.

Ötən il bu istiqamətdə ölkədə çoxsaylı tədbirlər təşkil olundu ki, bunlar həm Şuşanın, həm bütövlükdə Azərbaycan mədəniyyətinin zəngin irsinin, eyni zamanda türk dünyasının mədəniyyətinin təqdim edilməsində əvəzsiz rol oyanadı.

Türk dünyasının birliyi, həmrəyliyi işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində də özünün aydın ifadəsini tapır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, **“türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür”.**

**Şuşada imzalanan Qarabağ Bəyannaməsi türk dövlətlərinin həmrəyliyinin növbəti təntənəsi oldu**

Bir məsələni də qeyd edək ki, TDT-nin indiyədək 4 qeyri-rəsmi zirvə görüşü keçirilib. COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə görüşü və 2021-ci il martın 31-də keçirilən qeyri-rəsmi Zirvə Görüşü barədə bəhs etdik. Daha sonra 2023-cü il martın 16-da Ankarada, 2024-cü il iyulun 5-6-da Şuşada qeyri-rəsmi zirvə görüşləri keçirildi. Ankara keçirilən Zirvə görüşü Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra qardaş dövlətə dəstək məqsədi daşıyıb. Türk dövlətlərinin rəhbərləri Ankarada bir araya gələrək, Türkiyənin yanında olduqlarını bir daha göstərdilər. İmzalanan Ankara bəyannaməsində də türk dövlətlərinin Türkiyənin dərdinə şərik olduğu vurğulandı, təbii fəlakətlərin idarə olunması sahəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd edildi. Bu qeyri-rəsmi zirvə görüşünün digər mühüm cəhəti iclasda müşahidəçi üzv olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının üzv dövlətlərlə yanaşı, ən yüksək səviyyədə təmsil olunması idi. Bütün bunlardan belə anlaşıldı ki, tərəfsizliyini qoruyan Türkmənistan türk dövlətləri ilə əməkdaşlığını getdikcə artıracaq və ona üzv olan dövlətlər Kiprlə yaxınlaşmağa davam edəcək.

Üzv dövlətlər Azərbaycanın Tehrandakı səfirliyinə hücumu və Avropa ölkələrində Qurana qarşı edilən təhqirləri də pislədilər. Bu zirvə görüşü bir daha göstərdi ki, üzv ölkələr regional və qlobal problemlərə və hadisələrə qarşı birgə hərəkət edir və həmfikirdirlər.

2024-cü il iyulun 5-6-da Şuşa şəhərində TDT-nin növbəti qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi bir daha dünyaya “Qarabağ Azərbaycandır!” reallığının bəyan edilməsi idi. Bu zirvə görüşü həm beynəlxalq aləmə, həm də Ermənistanın havadarlarına ciddi mesaj oldu. Çünki bu tədbir dünya ictimaiyyətinin diqqətini yenidən Şuşaya, Qarabağa yönəltdi.

Prezident İlham Əliyev də 2024-cü il iyunun 6-da TÜRKPA nümayəndələri ilə görüşündə bildirmişdi ki, onun təşəbbüsü ilə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Dövlət başçısı xüsusi vurğulayıb ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etmir. Eyni mövqeni Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da səsləndirib: **“Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da güclənməsi üçün fəaliyyətimizi davam etdiririk. Təşkilatımızın növbədənkənar Zirvə Toplantısının iyul ayında Türk dünyasının mədəniyyət paytaxtlarından olan Şuşada keçirilməsindən məmnunluq hissi keçirdiyimi xüsusi qeyd etmək istəyirəm”.**

*(davamı gələn sayımızda)*

**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin deputatı, akademik**

**Mənbə: “Azərbaycan” qəzeti, 4, 5 oktyabr 2024-cü il.**

# “AzerGold” QSC-nin nümayəndə heyəti “Gədəbəy” saziş sahəsinə növbəti dəfə səfər edib



“AzerGold” QSC-nin nümayəndə heyəti “R.V. Investment Group Services, LLC” ilə bağlanmış saziş üzrə səlahiyyətlərinin icrası çərçivəsində “Gədəbəy” saziş sahəsinə növbəti dəfə səfər ediblər. Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov və QSC-nin nəzdində yaradılmış İşçi qrupunun üzvləri, o cümlədən digər səlahiyyətli şəxslər ilk olaraq Gədəbəy rayonunun Söyüdlü kəndinin yaxınlığında yerləşən nəm tullantı anbarına və digər infrastruktur obyektlərinə baxış keçiriblər.

Nümayəndə heyətinə “Gədəbəy” saziş sahəsinin nəm tullantı anbarının dayanıqlığının təmin edilməsi məqsədilə dayaq bəndin tikinti prosesi barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, “AzerGold” QSC tərəfindən həyata keçirilən operativ dəstək tədbirləri nəticəsində tikintinin layihə sənədlərinin aidiyyəti üzrə dövlət qurumlarından razılaşdırılması və icazə sənədlərinin əldə olunmasından sonra avqust ayından etibarən başlayan tikinti-quraşdırma işlərinin cari ilin noyabr ayında yekunlaşdırılması nəzərdə tutulur.

Daha sonra “AzerGold” QSC və “R.V. Investment Group Services, LLC” şirkətinin ölkəmizdəki mədən layihələri üzrə operatoru “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited”in (AİMKL) nümayəndələri arasında geniş tərkibdə görüş keçirilib. Görüşdə saziş üzrə tərəfdaşlıq səlahiyyətlərinin “AzerGold” QSC-yə ötürülməsindən sonra görülən işlər müzakirə olunub. QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov saziş sahələrində mədən-filiz əməliyyatlarının icrası zamanı fəaliyyətin sazişin tələblərinə, yerli və beynəlxalq standartlara uyğun şəkildə təşkil edilməsi üçün zəruri tədbirlərin görüldüyünü bildirib. Qeyd olunub ki, hazırda xarici şirkətin fəaliyyətinin təkmilləşdirilməsi, bəzi proseslərin qanunvericiliyə uyğunlaşdırılması, biznes əməliyyatlarında keyfiyyətin yüksəldilməsi, həmçinin Ağdərə rayonunun ərazisində yerləşən “Dəmirli” mis-molibden yatağında hasilatın qısa zaman ərzində təşkilinə dəstək göstərilməsi istiqamətləri üzrə intensiv iş aparılır.

İdarə Heyətinin sədri əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində atılmalı olan vacib addımları və gözləntiləri diqqətə çatdırıb, növbəti addımların vaxtında və düzgün icrası istiqamətində tapşırıq və tövsiyyələrini verib.

AİMKL şirkətinin texniki işlər üzrə vitse-prezidenti Fərhəng Hedjazi “AzerGold” QSC ilə birgə həyata keçirilən operativ tədbirlər nəticəsində növbəti aydan etibarən istehsalatın mərhələli şəkildə bərpa ediləcəyini bildirib. Nəticədə şirkətin istehsalat göstəricilərinin tədricən artması, 2025-ci ilin əvvəlində isə 2023-cü ilədək olan səviyyəyə çatdırılması təmin ediləcək.

# Nüfuzlu “Mining Journal” nəşri “Daşkəsən dəmir filizi” layihəsinə geniş məqalə həsr edib




Böyük Britaniyanın nüfuzlu “Mining Journal” nəşrinin onlayn resurslarında – “mining-journal.com” və “miningnews.net” veb-səhifələrində “AzerGold” QSC-nin törəmə şirkəti – “Daşkəsən Dəmir Filiz” MMC-nin icra etdiyi “Daşkəsən dəmir filizi” layihəsi ilə bağlı geniş məqalə dərc edilib.

Məqalədə Cənubi Qafqazın ən böyük qara metal filizi yataqları kompleksi olan “Daşkəsən” dəmir filizi sahəsinin yenidən istismara verilməsi, mütərəqqi beynəlxalq təcrübə və müasir texnoloji həllərlə dəmir istehsalı zəncirinin yaradılması istiqamətində həyata keçirilən fəaliyyətdən bəhs olunub. Qeyd edilib ki, mədən şirkəti ixracyönümlü polad məhsullarının hazırlanması üçün yüksək keyfiyyətli xammala artan tələbatın ödənilməsi məqsədilə ilkin mərhələdə dəmir konsentratının istehsalı üçün Zənginləşdirmə zavodunun inşasını planlaşdırır. Növbəti mərhələdə zənginləşdirilmiş konsentratdan xammal qismində mexaniki və kimyəvi uyğunluğun təmin edilməsi üçün aralıq məhsul olan pellet istehsalı infrastrukturu – Pellet zavodu qurulacaq. Daha sonra pellet son məhsul olaraq 95% dəmir tərkibli isti briketləşdirilmiş dəmirin (HBI – Hot Briquetted Iron) istehsalı üçün inşa ediləcək HBI zavoduna yönəldiləcək.

Məqalədə, həmçinin zavodların layihələndirmə mərhələsindən başlayaraq müasir ekoloji tələblərə uyğunluğunun təmin edilməsi məqsədilə qlobal tendensiyaların nəzərə alındığı qeyd olunub. İstehsal zəncirinin son halqası olan HBI texnologiyasının klassik yanaşma ilə müqayisədə karbon qazı emissiyasının 60%-dək azaldılmasına imkan yaratdığı, bu texnologiyanın gələcəkdə istehsal prosesində hidrogenə keçid edilməsinə, beləliklə “yaşıl” texnologiyaların tətbiqinin genişləndirilməsinə imkan yaradacağı diqqətə çatdırılıb. Bununla “Daşkəsən dəmir filizi” layihəsi çərçivəsində zavodların ekoloji statusunun möhkəmləndiriləcəyi vurğulanıb.

Məqalədə layihənin böyük iqtisadi və sosial əhəmiyyəti fonunda xarici investorlar tərəfindən ciddi maraq göstərildiyi, “Daşkəsən” dəmir filizi yataqlarının istismara verilməsinin Gəncə-Daşkəsən iqtisadi rayonunda məşğulluq indeksinə müsbət təsir göstərəcəyi, minlərlə daimi iş yerinin yaradılacağı qeyd olunub.

**Sözügedən məqalə ilə tanış olmaq üçün aşağıdakı linklərə keçid edə bilərsiniz:**
**“www.mining-journal.com”**
**“www.miningnews.net”**

# "Qarabağın biomüxtəlifliyi" adlı layihə uğurla başa çatmışdır



Son 13 il ərzində gənc nəslin inkişafına, vətənpərvərlik tərbiyəsinə, biliklərinin genişlənməsinə istiqamətlənmiş onlarla mühüm fəaliyyətə imza atmış "Gənclik və maarifçilik" İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Qarabağın biomüxtəlifliyi" adlı layihəni uğurla başa çatdırmışdır.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpaqları canlı sərvətləri, biomüxtəlifliyi ilə birgə erməni işğalçılarından azad edilmiş, suverenliyimiz tam şəkildə bərpa olunmuşdur. Bununla da Qarabağ regionunda ermənilər tərəfindən törədilmiş ekoloji fəlakətin elmi əsaslı monitorinqi, azad edilmiş ərazilərin bioloji müxtəlifliyinin, torpaq və su ehtiyatlarının işğaldan əvvəlki və mövcud vəziyyətinin müqayisəli təhlili, bərpası, mühafizəsi və səmərəli istifadəsi üçün şərait yaranmışdır.

Layihə çərçivəsində bütün bunların əks olunduğu "Qarabağın biomüxtəlifliyi" adlı kitab nəşr edilmişdir (Qarabağın biomüxtəlifliyi. Bakı: "Müəllim", 2024, 95 s.). "Gənclik və Maarifçilik" İctimai Birliyinin və layihənin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Vaqif Əmikişiyev tərəfindən işlənmiş və iki dildə (Azərbaycan və ingilis) çap olunmuş kitabda Qarabağın zəngin və unikal biomüxtəlifliyi və işğal dövründə bu müxtəlifliyə qarşı vəhşi münasibətin izləri haqqında ölkə alimlərinin fikirləri, apardıqları tədqiqatların nəticələri toplanmışdır.

21 oktyabr 2024-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universtetində tələbə və müəllim heyətinin iştirakı ilə "Qarabağın biomüxtəlifliyi" adlı kitabın təqdimat mərasimi keçirilmişdir. Təqdimat mərasimindən sonra kitabın nüsxələri Vaqif Əmikişiyevin imzası ilə iştirakçılara paylanmışdır.

# "Bakcell" UNEC-də keçirilən İnnovasiya Həftəsinin əsas tərəfdaşıdır

İnnovasiya və sürət lideri "Bakcell"in əsas tərəfdaşlığı ilə UNEC-də İnnovasiya Həftəsi keçirilir. Tədbirin ilk günündə "Bakcell"in nümayəndələri "Telekommunikasiyada qlobal trendlər: "Bakcell"in innovativ məhsul və həlləri" və "Dəyişən dünyada böyük dəyişikliklər qarşısında aktual qalmaq" mövzularında panel müzakirələrə qatılıblar.




"Bakcell"in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə rəhbəri Aysel Süleymanova və Marketinq direktoru Elxan Sadıqzadə tələbələrə brendin rəqəmsal erada mövqeləndirilməsi, müasir çağırışlar və imkanlar, rəqəmsal imic formalaşdırılmasının incəlikləri və müştərilərin diqqətini cəlb etmək üçün strategiyalar barədə məlumat verib, həmçinin onları maraqlandıran sualları cavablandırıblar.

UNEC-də keçirilən İnnovasiya Həftəsi innovasiya sahəsində yenilikləri təşviq etmək və tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq məqsədi daşıyır. Həftə ərzində universitetdə müxtəlif tədbirlər, o cümlədən seminarlar, təlimlər, panel müzakirələri və startap ideyalarının təqdimatları təşkil ediləcək.

Qeyd edək ki, "Bakcell" gənc nəslin inkişafına və onların yaradıcı potensialının üzə çıxarılmasına xüsusi önəm verir. Şirkət bu istiqamətdə tələbələrə dəstək olmaq, innovativ layihələri təşviq etmək və yeni təşəbbüsləri daha da genişləndirməyi planlaşdırır.

# "Bakcell" BMT-nin Qlobal Sazişinə qoşulub

İnnovasiya və sürət lideri "Bakcell" BMT-nin Qlobal Sazişinə (United Nations Global Compact) qoşulub. Bununla bağlı "Bakcell"in baş icraçı direktoru Klaus Müller və BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov arasında memorandum imzalanıb.



Klaus Müller bildirib ki, təşəbbüsə qoşulmaqla şirkət dayanıqlı inkişaf və sosial məsuliyyət prinsiplərinə sadiqliyini nümayiş etdirir: "BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət strategiyamızın əsasını təşkil edir. Qlobal Sazişin 10 prinsipini tətbiq etməklə ekoloji, sosial və korporativ idarəetmə sahələrində fəaliyyətimizi daha da təkmilləşdirəcəyik".

"BMT-nin Qlobal Sazişinə qoşulmaqla "Bakcell" dayanıqlı gələcəyə töhfə vermək öhdəliyini bir daha təsdiqləyir. Bu, hər kəs üçün daha yaxşı bir gələcək qurmaq məqsədilə ictimai bir vəddir – tərəfdaşlara, səhmdarlara, təchizatçılara, işçilərə, müştərilərə və gələcək nəsillərə verilmiş bir öhdəlik. "Bakcell" sözünə sadiq korporativ şirkət kimi tanınır. Texnologiya dayanıqlığın əsas təminatçılarından biridir və yenilikçi bir şirkət olaraq "Bakcell", fərdlər, icmalar və sənayelər üçün daha yaxşı, məsuliyyətli və qayğıkeş həyat tərzi yaratmaq məqsədilə texnologiyanı əlçatan etməyə mühüm töhfə verəcək", - deyə Samir Məmmədov bildirib.

Qeyd edək ki, "Bakcell" işğaldan azad olunmuş bölgələr də daxil olmaqla, ölkə ərazisində keçirdiyi müxtəlif innovativ layihələrlə iqtisadiyyatın inkişafına, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə çatmasına töhfə verir. "Bakcell"in ətraf mühitin qorunması istiqamətində atdığı addımlar enerji istehlakı və elektron tullantıların ətraf mühitə təsirinin azaldılmasını, həmçinin bərpa olunan enerji mənbələrindən daha geniş şəkildə istifadəni hədəfləyir. Belə ki, şirkət eSIM texnologiyasının tətbiqi ilə plastik tullantıları azaldır, həmçinin bərpa olunan enerji ilə işləyən stansiyalarla bağlı pilot layihə həyata keçirir. Bundan əlavə, şirkət həyata keçirdiyi "FLEXcellence" proqramı vasitəsilə hibrid iş rejimini təşviq edir. Bu isə öz növbəsində əməkdaşların enerji və vaxt itkisini azaldır, onların iş və şəxsi həyatları arasında balansı təmin etməsinə kömək edir.

BMT-nin Qlobal Sazişi dünyada dayanıqlı inkişaf və sosial məsuliyyət sahəsində ən böyük beynəlxalq təşəbbüsdür. Hazırda Qlobal Sazişin iştirakçıları sırasında 160-dan çox ölkədən 20 mindən çox təşkilat yer alır. Təşəbbüs üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır.

# "İnsult - müalicəsi ən qısa müddətdə edilməli olan xəstəliklərdəndir"

***Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ölüm səbəbinə görə insult dünyada ürək-damar xəstəliklərindən sonra ikinci yerdədir.***

Dünyada hər il 15 milyondan çox insan beyin insultundan əziyyət çəkir. Statistikaya görə, bu xəstəliyi keçirmiş insanların 31%-i kənar yardıma ehtiyacı olan insanlardır, 20%-i sərbəst yeriyə bilmir və yalnız 8%-i əvvəlki həyatlarına qayıda bilir.

İnsultun tezliyi yaşla əhəmiyyətli dərəcədə artır, lakin insultların 60%-dən çoxu 70 yaşa qədər, 16%-i isə 50 yaşa qədər insanlarda baş verir. İnsult keçirmiş insanların yarıdan çoxu həyatını itirir.

29 oktyabr Ümumdünya İnsultla Mübarizə Günüdür. Bu günün qeyd edilməsinin məqsədi diqqəti bu xəstəliyin ciddiliyinə və onun erkən aşkarlanmasının zəruriliyinə cəlb etməkdir.

Bütün dünyada olduğu kimi, xəstəliyin get-gedə cavanlaşması son vaxtlar Azərbaycanda da müşahidə edilir. İnsultun insanlar arasında belə yayılmasının səbəblərini araşdırmaq üçün suallarımızı Mərkəzi Gömrük Hospitalının nevroloqu Dr.Mənsumə Talıbovaya ünvanladıq.

***- Mənsumə həkim, işemik insult haqqında nə deyə bilərsiniz?***

- İnsult beynin qan dövranının kəskin pozulması, yəni beyni qidalandıran damarlardan bir və ya bir neçəsinin daralması və ya tutulmasıdır.

İşemik insult həmçinin damar, ürək və ya qan xəstəlikləri ilə bağlı, tromboz və ya emboliya ilə əlaqədar, beynin müəyyən bir bölgəsində kifayət qədər qan təchizatının çatışmazlığı nəticəsində beynin ocaqlı zədələnməsidir. 24 saatdan artıq davam edən və ya bir sutka ərzində ölümlə nəticələnən nevroloji simptomların kəskin inkişafı ilə xarakterizə olunan sindromdur.



İnsult əksər hallarda bədənin sağ və ya sol yarısında - ətraflarda uyuşma, qəfil zəiflik, üzün asimmetriyası, huşun, nitqin və görmənin pozulması, başgicəllənmə ilə özünü göstərir. Diaqnoz klinik, laborator, tomoqrafik və damar müayinələrinin nəticələri əsasında qoyulur.

***- Son vaxtlar işemik insult hallarının artma səbəbləri hansılardır?***

- İşemik insultun əsas səbəbləri ekologiyanın çirkləndirilməsi, keyfiyyətsiz qida məhsullarının, fast-foodların qəbulu, oturaq həyat tərzi, fiziki aktivliyin az olması, yüksək qan təzyiqi olduqda buna fikir verməmək və müalicə almamaq, stress hallarının gündəlik həyatımızda artması və s.-dir.

Ümumiyyətlə, insultun yaranma riskini artıran üç əsas amil - hipertoniya, yüksək xolesterin və artıq çəkidir.

***- İnsultun əlamətləri hansılardır? Hansı narahatlığı hiss etdikdə həkimə müraciət etmək lazımdır?***

- İnsultun əlamətlərinə bir qolda və ya ayaqda, xüsusən də bədənin yalnız bir tərəfində ani uyuşma və zəiflik, ani qarışıqlıq, danışmaq və anlamaqda çətinlik çəkmə, bir və ya hər iki gözdə ani görmə itkisi, ani və səbəbi bilinməyən kəskin baş ağrısı, ani gəzinti çətinliyi, başgicəllənmə, tarazlıq və koordinasiya itkisi aiddir. Bu pozuntulardan narahatlıq hiss etdikdə, dərhal həkimə müraciət olunmalıdır.

***- İnsultun risk faktorları barədə nə deyə bilərsiniz?***

- Yüksək qan təzyiqi, şəkərli diabet, yüksək xolesterol səviyyəsi, bilinən ürək ritm pozğunluğu olan şəxslər risk qrupuna aiddir. Həmçinin, siqaret çəkən, oturaq həyat tərzi keçirən, çəkisi çox, səhv yemək vərdişləri olan şəxslər də risk qrupundadır.

Bu xəstəlik dünyada ölüm və əlilliyin əsas səbəblərindən biri olaraq qalır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il dünyada 13 milyon nəfər insultdan əziyyət çəkir və təxminən 5,5 milyon nəfər bu xəstəlikdən dünyasını dəyişir. Damar xəstəlikləri ölümlərin yarıdan çoxunu təşkil edir və əgər əvvəllər insult əsasən 55-60 yaşdan yuxarı xəstələrdə baş verirdisə, indi bu halların təxminən üçdə biri əmək qabiliyyətli yaşda, yəni 25-50 yaşlılar arasında özünü göstərir. Həkimlərin qənaətinə görə, insult xəstəliyinə qadınlarla müqayisədə kişilərdə daha çox rast gəlinir.

***- İşemik insultun müalicəsi varmı? Vaxtında müraciət etdikdə bu xəstəlikdən qurtulmaq mümkündürmü?***

- İnsult müalicəsi ən qısa müddətdə edilməli olan xəstəliklərdəndir. Çünki beyin damarı tıxandıqda beyin toxumasına ziyan verir. Müalicə etməyi gözlədiyiniz müddətdə bu zərər daha da genişlənir. Tıxanmış damar böyük olduqda və müalicə müddəti uzandıqda beyin zədələnməsi daha da artır. Tıxanan damarın qısa müddətdə açılması beyin toxumasındakı ziyanın genişlənməsinin qarşısını alır. İnsult nəticəsində beyin toxumasına dəyən ziyanı nə qədər çox məhdudlaşdıra bilsək, o qədər tez və daha sürətli bərpa edə bilərik. Bu səbəbdən insultdan danışarkən, sürətli müalicə erkən və sürətli bərpa deməkdir.

**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# "Biz terrorçular və demokratiya düşmənləri qarşısında baş əyməyəcəyik"



***"Xalqa xidmət bəhanəsi ilə xalqı aldatmağa, gəncləri "manqurt"a çevirməyə çalışan hər kəsi şərəfsiz son gözləyir".***

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çərşənbə axşamı Ankarada hakim Ədalət və İnkişaf Partiyasının (ƏİP) funksionerləri qarşısında çıxışı zamanı bildirib. Türkiyə dövlət başçısı 2016-cı il iyulun 15-də ölkədə hakimiyyətin silahlı ələ keçirilməsi cəhdinin qarşısını alan türk xalqının qəhrəmanlığını yüksək qiymətləndirib.

Siyasətçi xatırladıb ki, "Paralel dövlət" təşkilatı (FETÖ) terrorçularının təşkil etdiyi qanlı çevrilişin iştirakçılarına qarşı mübarizədə 250-dən çox ölkə vətəndaşı həlak olub.

Dövlət başçısı əmin edib ki, FETÖ üzvlərinə qarşı qəti mübarizə bu cinayətkar təşkilat tamamilə dağılana qədər davam edəcək. ***"Türkiyənin bütün dövlət qurumları FETÖ ilə mübarizəyə cəlb edilib. Mübarizə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda aparılır"***, - deyə Ərdoğan bildirib. Türkiyə Prezidenti bazar günü ABŞ-da dünyasını dəyişən FETÖ terror təşkilatının lideri Fetullah Güleni "alçaq xain" və "Vətən xaini" adlandırıb.

***"Bütün dünya Türkiyəyə xəyanət edənlərin sonunun şahidi oldu. Biz terrorçuların, quldurların və demokratiya düşmənlərinin qarşısında baş əymirik"***, - deyə Ərdoğan bildirib.

Dövlət başçısı vurğulayıb ki, xarici dairələr və "beşinci kolon" nümayəndələri Türkiyəni idarə edə bilməyəcəklər.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik Ziyad Səmədzadə Maliyyə Nazirliyi Aparatının Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı
**FLORA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Maliyyə Nazirliyi Aparatının Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı
**FLORA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**